# İLHAM ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOJİ TARAZLIĞININ TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ

**Leyla Hüseynova**

*AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Bakı*
*l_huseyinova@mail.ru*

Azərbaycan Respublikasında müxtəlif xarakterli ətraf mühit problemlərinin həllinə xüsusi diqqət yetirilir. Ekoloji tarazlığın qorunub saxlanması, həyat mənbəyi sayılan suyun, havanın, torpağın çirklənmədən mühafizə edilməsi ümumbəşəri problemdir. Bu problemlərin həlli bütün dünyanın, eləcə də Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrdən biridir. Bu vəzifələri yerinə yetirmək üçün genişmiqyaslı fəaliyyət proqramları, böyük dövlət investisiyaları tələb olunur ki, Azərbaycan Respublikasında bu kimi fəaliyyətə hər zaman geniş yer verilir.

Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə yaşıllığa, parkların, meşələrin salınmasına xüsusi diqqət yetirirdi. Həmin dövrdə ətraf mühit sahəsində 8 qanun qəbul olunub, hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilib.

Bu gün ekologiya problemlərinin həlli məsələsi  Heydər Əliyevin ekoloji siyasətinin davamı kimi aparılır. Azərbaycan Respublikasında sürətli iqtisadi inkişaf ekoloji problemlərin həllini, ətraf mühitin qorunması məsələsinin dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilməsinə imkan yaradır. Azərbaycanda ekoloji tarazlığın təmin edilməsinə yönəldilən irimiqyaslı dövlət proqramları, böyük layihələr həyata keçirilir ki, bu da ölkənin ekoloji simasında özünü büruzə verir.

Həyata keçirilən ən mühüm addım “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı” hesab olunur. Bu sənəd Bakı şəhəri və onun

ətrafında, Abşeron yarımadasında günbəgün ağırlaşan, hətta ekoloji böhran xarakteri almağa başlayan çirklənmənin qarşısını almaq üçün strateji əhəmiyyət kəsb etdi. Bakı şəhəri ətrafında uzun illərdən bəri mövcud olan neft gölməçələri, sənaye çirkab sularının təmizlənməsi və axıdılması üçün yetərli infrastrukturun mövcud olmaması ekoloji böhran təhlükəsi yaradırdı. Məhz Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş həmin planda yaranmış vəziyyətin təhlili əsasında ətraf mühitin mövcud vəziyyətinin bərpasına yönəldilmiş bütün əsas fəaliyyət istiqamətləri öz əksini tapmışdır.

Xəzər dənizinin Azərbaycan Respublikasının paytaxtı Bakı üçün ekoloji balansın təmin edilməsində rolu böyükdür. Lakin Xəzər dənizinin hüquqi statusunun hələ də müəyyən olunmamış qalması onun çirklənmədən mühafizəsi, nadir faunasının qorunması üçün çoxtərəfli tədbirlərin görülməsi imkanlarını da məhdudlaşdırır.

Azərbaycan Respublikası Xəzər dənizinin çirklənməkdən qorunması, burada yaşayan canlıların, xüsusən nərə balığı kimi dünyanın ən nadir balıq növlərindən birinin məhv olmaqdan xilas edilməsi istiqamətində irihəcmli investisiyalar sərf edən, zəruri infrastruktur yaradan ölkədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci il 20 iyun tarixində imzalanmış "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" Sərəncamdan irəli gələn məsələlərin həlli istiqamətində konkret tədbirlər həyata keçirilir. Sərəncamda sahil ərazilərindən tullantı sularının təmizlənmədən axıdılmasının Xəzər dənizinin zərərli kimyəvi maddələrlə çirklənməsinə və bunun nəticəsi olaraq onun unikal bioloji müxtəlifliyinin pozulmasına səbəb olması qeyd olunub. Xəzər sahillərində beynəlxalq standartlara cavab verən modul tipli lokal çirkab sutəmizləyici qurğular quraşdırılmışdır ki, həmin qurğular İtaliya, ABŞ, Almaniya, Tayvan, Türkiyə Cümhuriyyəti, Fransa istehsalı olan avadanlıqlardan ibarətdir.

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması, ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəlmiş tədbirlərdən biri ölkədə ilk dəfə alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə dair dövlət proqramının qəbul olunmasıdır. Azərbaycan Respublikasının zəngin neft-qaz ehtiyatlarına malik olması baxımından ölkənin enerjiyə olan tələbatının ödənilməsi problemi mövcud deyil. Lakin ənənəvi enerji mənbələrindən istifadə ətraf mühitin çirklənməsi prosesi ilə müşayiət olunur, ənənəvi enerji mənbələri olan karbohidrogen ehtiyatları dünyada tükənməz deyil və bunu nəzərə alan ölkə rəhbərliyi alternativ enerji mənbələrindən istifadəni gələcəyə hesablanmış strateji vəzifə kimi müəyyənləşdirmişdir. Çünki Azərbaycan Respublikası özünün əlverişli təbii şəraiti ilə kifayət qədər alternativ və bərpaolunan enerji potensialına malikdir.

Azərbaycanda ekoloji istiqamətdə görülmüş ən vacib işlərdən biri də əhalinin ekoloji təmiz içməli su ilə təchizatına dair həyata keçirilmiş layihələrdir. Respublikada əhalinin ekoloji tələblərə cavab verən keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən həyata keçirilmiş bir sıra tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasının bəzi rayonlarında, habelə Yevlax, Zərdab, Ağcabədi, Kürdəmir, İmişli, Sabirabad, Saatlı, Salyan, Neftçala və Biləsuvar rayonlarının yüzlərlə yaşayış məntəqəsində 2007-2008-ci illərdə sutəmizləyici qurğuların quraşdırılmasına başlandı. Prezident İlham Əliyevin 2007-ci il 20 iyun tarixində "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" imzaladığı Sərəncama əsasən, Kür və Araz çaylarının suyundan istifadə edən yaşayış məntəqələrinin ekoloji cəhətdən təmiz su ilə təmin edilməsi məqsədilə qısa müddət ərzində konkret tədbirlər görüldü.

Azərbaycan Respublikasında ətraf mühit problemlərinin həlli istiqamətində işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Ekoloji vəziyyətin yaxşılaşdırılması sahəsində mühüm mərhələlərdən biri də ölkədə 2010-cu il hesab edilə bilər. Həmin il fevralın 18-də Prezidenti İlham Əliyev tərəfindən ekoloji problemlərə həsr olunmuş xüsusi müşavirədə mövcud ekoloji problemlər və onların həlli istiqamətində görülmüş işlər, habelə planlaşdırılan fəaliyyət proqramları geniş müzakirə olundu. Elə həmin müşavirədə 2010-cu il cənab İlham Əliyev tərəfindən "Ekologiya İli" elan edildi. Bu kampaniya ətraf mühit problemlərinə daha geniş ictimaiyyətin cəlb edilməsinə, bütün dövlət və ictimai institutların ekoloji tədbirləri gücləndirməsinə imkan yaratdı. "Ekologiya İli" çərçivəsində paytaxtda və digər iri şəhərlərdə, bölgələrdə milyonlarla ağac əkildi, ətraf mühit problemlərinə dair ictimai müzakirələr və digər təşəbbüslər reallaşdırıldı.

Heydər Əliyev Fondu və IDEA İctimai Birliyinin təşəbbüsü ilə ekoloji təhlükəsizliyin təmin edilməsi və ətraf mühitin mühafizəsi sahəsində gənclərin biliklərinin artırılması məqsədilə mütəmadi olaraq maarifləndirmə tədbirləri, iməciliklər, müsabiqə və turnirlər, sərgi və konfranslar keçirilir, yay məktəbləri təşkil olunur. Fondun təşəbbüsü ilə 2010-cu ildən etibarən Bakının Qala qəsəbəsi ərazisində tullantıların

düzgün idarə edilməsi sisteminin qurulması üçün "Təmiz Qala" layihəsi həyata keçirilir. Layihənin məqsədi tullantıların yığımını və daşınmasını, o cümlədən sonrakı utilizasiyasını müasir standartlara uyğun təşkil etmək idi. İnsanları israfçılıqdan çəkindirmək, onları təmizliyə əməl etməyə təşviq etmək məqsədilə 2012-2014-cü illərdə Heydər Əliyev Fondunun, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda "Tullantıdan sənətə" adlı beynəlxalq sərgi keçirildi.

AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi Heydər Əliyev Fondunun yardımı ilə ekologiyanın və təbii mühitin tarazlığının qorunması, ekoloji tarixin və ölkə ərazisindəki bioloji müxtəlifliyin mühafizəsində müstəsna əhəmiyyət daşıyan "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsini həyata keçirir. İctimaiyyətin diqqətini nəsli kəsilməkdə olan "Qafqaz beşliyi"nə cəlb etmək məqsədilə Heydər Əliyev Fondu IDEA İctimai Birliyinin ekoloji kampaniyası çərçivəsində hazırladığı ceyran maketlərini "Qız qalası" Beynəlxalq Festivalında nümayiş etdirir.

Qloballaşan dünyada ekoloji problemlərin yeni məsələləri meydana çıxır. Respublikanın uzun illər müharibə şəraitində olması da ekologiyanı təhlükə altına salan səbəblərdəndir. Ölkənin ekoloji strategiyasının əsasını təşkil edən proqramların qəbul edilməsi, müvafiq fərman və sərəncamların imzalanması, ətraf mühitin mühafizəsi, insanların sağlam təbii şəraitdə yaşaması və təbii sərvətlərdən səmərəli istifadə sahəsində həyata keçirilən siyasət Azərbaycan Respublikasında mövcud olan ekoloji problemlərin aradan qaldırılmasına xidmət edir. Azərbaycan Respublikası ekoloji problemlərin qarşısını almağın yeni, mütərəqqi yollarını tədqiq və tətbiq etməkdə davam edir.